# AZƏRBAYCAN BEYNƏLXALQ MÜNASİBƏTLƏRDƏ BAKI LİMANININ ROLU

***Beynəlxalq iqtisadi əlaqələr sistemində dəniz nəqliyyatı qarşılıqlı əlaqələrin formalaşmasında əsas rol oynayır. Bu əlaqələrdə «Bakı Beynəlxalq Dəniz Ticarət limanı» QSC-nin rolunu xüsusi qeyd etmək lazımdır. Müstəqilliyimizin ilk illərində Respublika üçün mürəkkəb bir dövrdə digər sahə kimi Bakı limanında da yükaşırma tempi kəskin şəkildə aşağı düşmüşdür.***

1993-cü ildə görkəmli dövlət xadimi Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışı ölkə daxilində sabitliyi yaratdı. Uğurlu xarici siyasət və neft müqavilələrinin bağlanması, nəqliyyat dəhlizinin və dünya ölkələri ilə əlaqələrin genişlənməsinə müsbət təsir göstərdi, geriliklər aradan qaldırıldı, iqtisadi inkişaf dövrü başlandı.

Qədim İpək yolunun fəaliyyəti Azərbaycanın Qafqaz regionundakı mühüm strateji mövqeyini daha da artırdı. Belə ki, dəniz limanında yükaşırmanın həcmi artmağa başladı.

Yükaşırmanın artması Respublikanın İqtisadi potensialının yüksələnməsində, xalq təsərrüfat sahəsinin inkişafında böyük əhəmiyyət daşıdı.

Böyük İpək yolunun bərpası Respublika sərhədlərini Şərqdən — Qərbə (TRASEKA) və Cənubdan — Şimala doqru kəsərək keçir və Çin — Avropa, Mərkəzi Asiya — Avropa, Mərkəzi Asiya — Qara dəniz, İran — Rusiya, Rusiya — Hindistan ticarət əlaqələrinin inkişafı üçün əsas infrastuktur layihələrinin və Ələt qəsəbəsində yeni Baki limanının istifadəyə verilməsi və Bakı limanında Azərbaycanın vacib reqional logistika mərkəzinə çevrilməsində tədbirlərin görülməsinin vacibliyini göstərdi.

Azərbaycan Respublikası Prezidentinin «Milli iqtisadiyyat və iqtisadiyyatının əsas sektoru üzrə strateji Yol xəritəsinin başlıca istiqamətlərinin təsdiqi və bundan irəli gələn məsələlər haqqında» 16 mart 2016-cı il tarixli 1897 saylı Sərəncamı ilə «Milli iqtisadiyyat və iqtisadiyyatının əsas sektoru üzrə strateji Yol xəritəsinin başlıca istiqamətləri» təsdiq edilmişdir. Sərəncama əsasən Azərbaycanın logistika, ticarətlə bağlı gələcək baxışlarını həyata keçirmək üçün 7 əsas təşəbbüs müəyyən edilmişdir. Həmin təşəbbüslər əsasən Azərbaycanda ticarət həcminin artırılması və tranzit ticarətdən yüksək gəlir əldə edilməsidir.

Azərbaycanın vacib logistika mərkəzinə çevrilməsində əsas infrastuktur layihələrindən biri də məhz Ələt qəsəbəsində tikilən Bakı dəniz limanıdır.

Bakı limanı reqion və hava limanının beynəlxalq marşrutlara birbaşa birləşdirən rəqabət qabiliyyətli və çoxtəyinatlı olmaqla Azərbaycanda ilk azad ticarət zonasına daxil edilmişdir. Ələt qəsəbəsində yerləşən Bakı Beynəlxalq Dəniz Ticarət limanı Xəzərdə ən böyük və azad ticarət zonası olan limandır.

Milli iqtisadiyyatın hərtərfli inkişafını təmin etmək məqsədilə qeyri neft sektorunun inkişaf etdirilməsi dövlətin iqtisadi siyasətinin proyektinə çevrilmişdir. Düşünülmüş siyasətin nəticəsində Bakı dəniz limanı beynəlxalq əlaqələrdə öz fəaliyyətində ikitərəfli münasibətlərə böyük diqqət yetirməyə başlamışdır.

Qeyd etdiyimiz kimi, «BBDT limanı» QSC-i üçün 2015 — 2019-cu illər irəliləyiş mərhələsi illəri olmuşdur. Hesab etmək olar ki, Bakı limanı 2020-ci ildən yeni inkişaf mərhələsinə qədəm qoymuş, çoxlu sayda ikitərəfli müqavilələr bağlanmışdır ki, burada Avropa şirkətləri ilə çox dərin əməkdaşlıq etməsi nəticəsində müxtəlif infrastruktur, enerji istehsalı və tikinti, nəqliyyat kommunikasiya qurğuları ilə bağlı layihələr həyata keçirilir və bununla da bütün işlər iqtisadiyyatın şaxələnmiş strategiyası planının hazırlanmasna istiqamətlənməsidir.

Almaniyanın Şərgi Biznes Assosiasiyasının icraçı direktoru Maxael Harmsin «BBDT limanı»QSCə baş çəkmisi ikitərəfli əlaqələrin möhkəmlənməsinə təkan verdi.

Belə ki, o Azərbaycanın yeni inkişaf mərhələsinə qədəm qoyduğunu və xoş təsir bağışladığını qeyd etmişdir.

Azərbaycanın «Bir kəmər, bir yol» təşəbbüsünə qoşulmasının və İpək yolunun qovşağında olmasını Münxen təhlükəsizlik konfransında bir daha qeyd edilmisidir.

Ölkədə aparılan islahatlar Bakı limanının həyatında yeni impuls verdi, liman işçilərin fəallığı artdı, hər yerdə səffavlığın artırılması və onları narahağ edən məsələlərin opertiv həll edilməsi işlərini davamlı etdi.



2020-ci il 12 fevralda «BBDT limanı» QSC-nin baş direktoru T.Ziyadov «CEO Lunch Baku»-nun ənənəvi tədbirində iştirak etmiş «CEO Lunch Baku»-nun fəxri qonağı olmuş və tədbirdə çıxış etmişdir.

«BBDT limanı» QSC-nin baş direktoru T.Ziyadova Caspian European Club kompaniyasının fəxri üzvü sertifikatı verilmişdir.

Caspian European Club-u 50 ölkənin 5000 kompaniyası və təşkilatları sıralarına birləşdirir. Təşkilat 2002-ci ilin iyun ayından fəaliyyət göstərir və ştab-evi Bakıda yerləşir. Təşkilatın Gürcüstanda, Qazaxıstanda, rəsmi numayəndəliyi, ABŞ-da, Almaniyada, Polşada, Latviya və Çexiyada nümayəndəliyi fəaliyyət göstərir.

Bakı limanı ərazisində mart ayından Gömrük üçün və müvəqqəti ambarların yaradılmasına start verilmişdir.

Onu da qeyd etmək lazımdır ki, BBDT limanında Avropa İttifaqı tərəfindən maliyələşdirilən Ecorus Nederland B.V. və Ha Skoninq D.H.V. Nederland B.V. konsorsiumu tərəfindən 16 yanvar 2018 — 15 aprel 2020-ci il tarixlərində layihə həyata keçirilmişdir.

Bunula əlaqədar Avropa ölkələrinin təcrübəsindən istifadə edilməsi zərurəti yarandı. Bakı limanını işçi heyəti ilə birgə limanın strateji planı və yaşıl liman konsepsiyası hazırlandı, ətraf mühit üzrə 14001:2015 və ECO-PORTS sertifikatlarının alınmasına nail oldu.

Layihənin həyata keçirilməsinin ilk günündən limanın işçi heyəti ilə layihə komandası arasında əməkdaşlıq möhkəmləndi.

«BBDT limanı» QSC-nin baş direktoru T.Ziyadov layihəni qiymətləndirərkən qeyd etmişdir ki, «Bakı limanı və Afropa İttifaqı arasında insan kapitalının inkişafı və limanın əməliyyat imkanlarının genişləndirilməsi istiqamətindəki əməkdaşlıq Bakı limanının institusional inkişafı baxımından olduqca faydalı olmuşdur, və Bakı limanının gələcək davamlı inkişafına öz töhfəsini verəcəkdir.

Avropa İttifaqının Azərbaycandakı nümayəndəliyinin rəhbəri səfir Kestutis Yankauskas vurğulayır ki, Avropa İttifaqı — Azərbaycan əməkdaşlığının bariz nümunəsi olan limanın qabaqcıl xidmət və imkanlarından istifadə etməkdən məmnunluq hissi keçirəcəklər.

Koronavirusin yayıldığı müddətdə dünya ölkələri öz sərhədlərini bağladığına görə tranzit ölkələrdən yararlanmaq zəruriyyəti yaranmışdır. Buna görə də Bakı limanı gücləndirilmiş iş rejiminə keçmişdir. Bunun üçün BBDT limanında qaynar xətt də fəaliyyətə başlamışdır.

Koronavirusun yayılması ilə əlaqədar limandakı nəzarət buraxılış məntəqələri gücləndirilmiş iş rejimində işləyir.

Limanda qabaqlayıcı tədbirlər görülür, liman əməkdaşları və Gömrük komitə işçiləri Səhiyyə nazirliyinin tibbi yardım avtomobilləri olmaqla liman ərazisində daim fəaliyyət göstərir və nəzarəti gücləndirir.

Beləliklə, əlverişli cografi şərait və Azərbaycanın logistika mərkəzinə çevrilməsi Avropa və mərkəzi Asiya ölkələrinin çoxu ticarət dövriyyəsinin «BBDTlimanı» QSC vasitəsi ilə aparılmasına şərait yaradır.

***Nazim ƏRƏBOV.***